# QARABAĞIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ YENİ MEYVƏ BAĞLARININ SALINMASINDA İSTİFADƏ ÜÇÜN TƏKLİF OLUNAN MEYVƏ SORTLARI

**Ələddin Sadıqov, Nardan Sadıqova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu, sadikov-1956@mail.ru*

Artıq işğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatının bərpası və ixtisaslaşması prosesi gedir. Burada heyvandarlıq, tərəvəzçilik, üzümçülük və s. sahələrlə yanaşı, meyvəçiliyin inkişafına da xüsusi yer ayrılmışdır. Tarixən bu torpaqlarda meyvə-giləmeyvə bitkilərinin (alma, armud, nar, fındıq, qoz, gilas, ərik, şaftalı, alça, üzüm, firəng üzümü, qarağat və s.) bir çox sort və formaları becərilmişdir. Adları qeyd olunan bitkilərin əksəriyyəti həm dağlıq, həm də dağətəyi ərazilərdə becərilmək üçün uyğunlaşmış, yüksək məhsuldar, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnistitutunun mandatına daxil olan bitkilərdir və bu sortların təsərrüfat-bioloji xüsusiyyətləri üzun illər Abşeron, Mərkəzi-Aran, Lənkəran-Astara, Şəki-Zaqatala, Quba-Xaçmaz iqtisadi rayonlarının ərazilərində inistitutun əməkdaşları tərəfindən öyrənilmişdir. Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnistitutu olaraq Qarabağ ərazisində meyvəçilik sahəsini inkişaf etdirmək üçün bölgənin torpaq-iqlim şəraitinə, həm də müasir becərmə texnologiyasına uyğunlaşa bilən yerli, xalq seleksiyası və seleksiya yolu ilə alınmış, həmçinin introduksiya olunmuş meyvə bitkilərindən:

Almanın Qızıl Əhmədi, Cır Hacı, Sarıturş, Azərbaycan, Vətən, Məxməri, Sədəf, Qolden Delişes, Fuji, Qala, Conaqold; armudun Cır Nadiri, Lətifə, Santa Mariya, Referans, Talqar gözəli; heyvanın Sarı heyva, Cardam, Eşme; şaftalının Fədai, Zolotoy yubley, nektarinin Qardeta, Quayoks 35, Meloks 31, Fantasia, Orion; gavalının Sarı albuxara, Yaşıl renklod, Persikovaya, Blek Daymond, Blek Anber; gilasın Raya, Sarı Droqana, Ziraat, Regina, Lapins, Samba, Burlat, Roman Aliva; alçanın Rəcəbli 1, Rəcəbli 2, Göycə Sultan; əriyin Badamı, Şalax; albalının Şpanka və Uzun saplaqlı albalı; narın Qara gilə, Şirin nar, Çəhrayı gülöyşə, Bala Mürsəl, Azərbaycan Gülöyşəsi, Nazik qabıq; əncirin Sarı Abşeron, Kadota, Qara əncir; badamın Nuray, Leyla, Nonparel, Guara, Kağızqabıq, Abşeron 1, Mərdəkan 1, Nikitskiy 62; şabalıdın Adi şabalıd, İri meyvəli, Xırda meyvəli; fındığın:-Atababa, Qalibi, Cijoni, Əşrəfi, Kudryavçuk; xurmanın Şişburun, Xiakume, Xaçia, Zənci-maru, Amon-kaki; zeytunun:-Şirin zeytun, Buzovna, Azərbaycan zeytunu, Ağababa, Monzanilla, Gemlik, Domat; qozun Seyfi, Suğra, Chandler və Ordubad sortlarından yeni meyvə bağlarının salınmasında istifadə olunmasını təklif edirik.